**"Heydər Əliyev Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Heydər Əliyev Mərkəzinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Heydər Əliyev Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. qüvvədə olan qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Heydər Əliyev Mərkəzinin işçilərinin say həddini, direktor müavinlərinin və işçilərinin aylıq vəzifə maaşlarını müəyyən etsin;

2.4. Heydər Əliyev Mərkəzinin maliyyələşdirilməsi məsələlərinin həlli ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi öz səlahiyyətləri daxilində Heydər Əliyev Mərkəzinin dövlət qeydiyyatına alınması üçün zəruri tədbirləri həyata keçirsinlər.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 oktyabr 2009-cu il
№ 161